**“Əhalinin radiasiya təhlükəsizliyi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə**

**Azərbaycan Respublİkası Prezİdentİnİn Fərmanı**

“Əhalinin radiasiya təhlükəsizliyi haqqında” Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq olunmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının “Əhalinin radiasiya təhlükəsizliyi haqqında” Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu haqqda Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

həmin Qanunun 13-cü maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş ərazi, müəssisə və təşkilatların radioloji-gigiyenik pasportlarının formasını və tərtib edilməsi qaydasını hazırlayıb təsdiq etsin;

həmin Qanunun 18-ci maddəsində nəzərdə tutulmuş fərdi şüalanma dozalarının uçotu və onlara nəzarət qaydasını müəyyən etsin;

həmin Qanunun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktlarının layihələrini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

öz səlahiyyəti daxilində həmin Qanundan irəli gələn digər məsələləri həll etsin;

bu Fərmanın 3-cü bəndində sadalanan fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarını hazırlayıb təsdiq etsin.

2. Müəyyən edilsin ki:

“Əhalinin radiasiya təhlükəsizliyi haqqında” Azərbaycan Respublikası Qanununun 10-cu maddəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

həmin Qanunun ~~7-ci maddəsinin birinci və ikinci hissələrində (radiasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində dövlət idarəetməsinə aid hissədə)~~, 9-cu maddəsinin altıncı hissəsində, 13-cü maddəsinin dördüncü hissəsində, 18-ci maddəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

həmin Qanunun 7-ci maddəsinin birinci və ikinci hissələrində (radiasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində dövlət nəzarətinə aid hissədə), 9-cu maddəsinin ikinci hissəsində, 11-ci maddəsinin 2-ci hissəsində, 13-cü maddəsinin birinci hissəsində, 14-cü maddəsinin onuncu və on birinci abzaslarında, 19-cu maddəsinin dördüncü abzasında və 20-ci maddəsinin üçüncü abzasında

nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanları”nın səlahiyyətlərini öz səlahiyyəti hüdudlarında Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirir;

həmin Qanunun 7-ci maddəsinin birinci və ikinci hissələrində, 9-cu maddəsinin səkkizinci hissəsində, 11-ci maddəsinin 2-ci hissəsində, 13-cü maddəsinin birinci hissəsində, 14-cü maddəsinin onuncu və on birinci abzaslarında, 19-cu maddəsinin dördüncü abzasında və 20-ci maddəsinin üçüncü abzasında nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanları”nın səlahiyyətlərini öz səlahiyyəti hüdudlarında Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi həyata keçirir;

həmin Qanunun 7-ci maddəsinin birinci və ikinci hissələrində (radiasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində dövlət nəzarətinə aid hissədə) və 14-cü maddəsinin on birinci abzasında nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanları”nın səlahiyyətlərini öz səlahiyyəti hüdudlarında Azərbaycan Respublikasının Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi həyata keçirir;

həmin Qanunun 14-cü maddəsinin onuncu abzasında, 19-cu maddəsinin dördüncü abzasında və 20-ci maddəsinin üçüncü abzasında nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanları”nın səlahiyyətlərini öz səlahiyyəti hüdudlarında yerli icra hakimiyyətlərinin başçıları həyata keçirirlər;

həmin Qanunun 14-cü maddəsinin onuncu abzasında, 19-cu maddəsinin dördüncü abzasında və 20-ci maddəsinin üçüncü abzasında nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanları”nın səlahiyyətlərini öz səlahiyyəti hüdudlarında Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi həyata keçirir;

3. Müəyyən edilsin ki, “Əhalinin radiasiya təhlükəsizliyi haqqında” Azərbaycan Respublikası Qanununun 10-cu maddəsində göstərilən aşağıdakı fəaliyyət növləri xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinə aiddir və onların lisenziyalaşdırılması Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi tərəfindən həyata keçirilir:

ionlaşdırıcı şüa mənbələrindən istifadə ilə əlaqədar elmi-tədqiqat və təcrübi-konstruktor işləri;

ionlaşdırıcı şüa mənbələri hesab edilən qurğuların, radioaktiv maddələrin saxlanma məntəqələrinin, radioaktiv tullantılar anbarlarının layihələşdirilməsi, hazırlanması, yerləşdirilməsi, inşası, istismarı və istismardan çıxarılması;

həmin qurğular, məntəqələr və anbarlar üçün texnoloji avadanlığın, radiasiya təhlükəsizliyi vasitələrinin layihələşdirilməsi və hazırlanması;

radioaktiv maddələrin hasilatı, istehsalı, emalı, nəqli və həmin maddələrdən istifadə ilə əlaqədar işlər.

Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV

Bakı şəhəri, 19 avqust 1998-ci il

№ 758